*Regionların sosial-iqtisadi inkişafı*

# Vətəndaşa qayğı ön plandadır





Hələ iyirmi il bundan öncə sosial həyatlarının yaxşılaşması üçün bəzi istək və arzularının arxasınca həsrətlə baxıb köks ötürən Azərbaycan vətəndaşı bu gün real həyatda onların mövcudluğunu görəndə, istirahətini şən və mənalı keçirəndə, hər növ kommunal xidmətlərdən, o cümlədən təbii qazdan, elektrik enerjisindən istifadədə narahatlıqla üzləşməyəndə özündə güclü mənəvi rahatlıq tapır. “Biz istəyirik ki, abad, firavan, gözəl şəhərdə, qəsəbədə və kənddə yaşayaq, qazımız, işığımız, bol içməli suyumuz, ev tikməyə, əkib-becərməyə torpağımız olsun, məmur bürokratçılığı, laqeydiliyi ilə üzləşməyək, arzu, təklif və istəklərimiz üçün üz tutduğumuz ümid qapılarından ümidsiz qayıtmayaq”, - deyə söhbətə qoşulan oğuzlu el ağsaqqalı rayonlarında artıq bütün bu məsələlərin öz yoluna düşdüyünü söylədi. Bildirdi ki, dedikləri ilə bu gün həyatda rastlaşanda özlərini xoşbəxtlərin xoşbəxti sayırlar.

Rayonun bugünkü sosial-iqtisadi həyatı ilə yaxından maraqlananda, vətəndaşların müraciətlərinin, istək və arzularının həyata keçirilməsi vəziyyətini öyrənəndə aydın oldu ki, burada icra strukturları ilə onların arasında sıx və səmimi ünsiyyət yaradılıb. Ölkə Prezidentinin vətəndaşların qəbulu, ərizə və şikayətlərinə baxılması və icrası ilə əlaqədar sərəncam və tapşırıqlarına Oğuz Rayon İcra Hakimiyyətində də ciddi diqqət yetirilir, irəli gələn vəzifələr yüksək məsuliyyətlə icra olunur. Təkcə ötən il rayon icra hakimiyyətinin yerlərdə 55 səyyar qəbulu keçirilmişdir. 55 min nəfərin iştirak etdiyi bu görüşlərdə vətəndaşlar tərəfindən içməli su, məktəb tikintisi və təmiri, qazlaşdırma, yolların əsaslı və cari təmiri, asfaltlanması və digər məsələlərlə bağlı 227 təklif irəli sürülmüşdür. Onların 80 faizdən çoxu icra olunmuşdur. Yerdə qalanları da əlaqədar icra strukturları tərəfindən nəzarətə götürülmüşdür. 2015-ci ilin ötən dövrünün nəticələrini də bura əlavə etsək, rayonda vətəndaş istəyinə müraciət və təklifinə məmur həssaslığının, dövlət qayğısının getdikcə yaxşılaşdırıldığını aydın görərik.

Bəli, Oğuz respublikamızın digər regionları kimi, əsl inkişaf, tərəqqi dövrünü yaşayır. Son 3-4 ilin sürətli sosial-iqtisadi inkişafı diqqəti daha çox cəlb edir. İcra hakimiyyəti başçısının Oğuz şəhəri üzrə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Firidun Baxışovun dediklərindən:

—Təkcə 2014-cü il ərzində Oğuz Rayon İcra Hakimiyyətinin sifarişi ilə şəhərin bir sıra küçələrində ümumilikdə 27700 kvadratmetr asfalt salınmış və 100 metr uzunluğunda su kəçidləri inşa edilmişdir.Yeni yaşayış sahəsi qazlaşdırılmışdır. Şəhərdə yeni-yeni sahibkarlıq obyektləri fəaliyyətə başlamışdır. Şəhərin su kanalizasiya sistemi 2013-cü ildə tikilərək istismara verilmiş, 77,24 km içməli su xətti çəkilmiş, 1930 abonentin mənzilində smart tipli su sayğacı quraşdırılmışdır. Oğuz şəhərinin təmiz və səliqəli saxlanması, yaşıllıqlara qulluq edilməsi işi daim diqqət mərkəzində saxlanılır. Şəhərin girəcəyindən bir-iki kilometr aralıdan başlayaraq yeni salınan ikitərəfli dördzolaqlı yol boyunca quraşdırılan elektrik dirəklərindən gecələr ətrafın nura qərq olmasını, yolun sağ və sol sahili boyunca salınan yaşıllıq zolağının nə qədər heyranedici, ürəyəyatımlı olduğunu, bura yolu düşənlər, bircə axşam Oğuzun qonağı olanlar yaxşı bilirlər. Zərifə Əliyeva adına parkda ayaq saxlayıb buranın əsrarəngiz mənzərəsini seyr edənlər, bir qədər yuxarıdakı veteranlar parkında ayaq saxlayıb 1941-1945-ci illər Böyük Vətən Müharibəsi iştirakçılarının xatirəsinə ehtiram göstərənlər buranın son illərdə əsl istirahət guşəsinə çevrildiyinin şahidi olurlar, qədim Oğuz diyarının gözəlliyindən, yaraşığından heyranlıqla danışmaya bilmirlər. Əsaslı yenidənqurmadan sonra şəhidlər xiyabanını ziyarətə gələnlər Oğuzda Vətən uğrunda canlarını qurban verən igidlərin xatirəsinə böyük ehtiram göstərildiyinin canlı şahidi olurlar.



Oğuz, doğrudan da, son 3-4 ildir çox dəyişib. Burada ayrı təsərrüfat olub ev tikmək istəyənlərin istəkləri də layiqincə həyata keçirilir. Ən başlıcası, onlara yeni ev tikmək üçün torpaq sahəsi verilir. Təkcə son bir ildə 60-dan çox gənc ailə bu istəyinə qoşulub. Kəndlərdəki göstəriciləri də bura əlavə etsək daha böyük rəqəm alınar. Oğuz şəhərində müasir standartlara cavab verən yeni uşaq bağçası, rayonun Sincan, Filfilli, Dəymədərə, Qarabulaq, Ərmənət, Qumlaq, Calud, Yaqublu kəndində inşa olunan yeni məktəb binası Oğuz sakinlərinə son 3-4 ildə bəxş olunub. Tikintisi davam edən Heydər Əliyev Mərkəzi üçün bina Oğuz şəhərində öz əzəmətinə, gözəl arxitekturasına görə fərqlənəcək, bura yeni görkəm, yaraşıq, daha etibarlı sosial-iqtisadi güc gətirəcək.

İstək və arzuların önündə kəndlərdə qazlaşdırma aparılmasına kömək, içməli su probleminin həllinə dəstək, yolların qaydaya salınması durur — deyən icra hakimiyyətinin başçısı Eyvaz Qurbanov artıq 13 kənddə adamların təbii qazdan 8 yaşayış məntəqəsində isə yeni içməli su xətlərindən istifadə etdiklərini bildirdi. Qeyd etdi ki, Oğuz-Bakı mərkəzi şosesindən ayrılan asfalt yol Qumlaq, Tayıflı, Şirvanlı, Xalxal, Ərmənət kəndlərini birləşdirir. Yaxın zamanlarda istifadəyə verilən Sincan, Xaçmaz-Qışlaq, Xaçmaz, Filfilli kəndlərini əhatə edən asfalt yol da vətəndaş istəklərinin bəhrəsidir. İcra başçısı onu da vurğuladı ki, hazırda rayonun 4 kəndində qaz çəkilişi aparılır. Ən böyük yaşayış məntəqəsi olan Xaçmaz kəndində təbii qaz xəttinin çəkilişi ilə maraqlanmaq üçün həmin yaşayış məntəqəsində olduq. Ərazi icra nümayəndəsi Teymur Atakişiyev məsələyə aydınlıq gətirərək aşağıdakıları söylədi:

—Kəndimizin sakinləri artıq neçə illərdir gözlədikləri sosial problemlərin həllini görür və bundan hədsiz fərəhlənirlər. 8 minə yaxın əhalisi olan Xaçmaza bu gün müasir srandartlara cavab verən asfalt yolun çəkilməsi, əhalinin içməli su təminatının həll olunması, nəhayət, təbii qaz xəttinin artıq kəndimizə gətirilməsi bunun aydın təsdiqidir. Ana xət nəzərə alınmadan təkcə kəndin daxilində 236 kilometr uzunluğunda qaz xətti çəkiləcək. İşə 5 briqada cəlb edilib. Hər gün bir kilometrdən çox məsafədə çəkiliş aparılır. Kəndimizin ağsaqqalları, ziyalıları, kənd bələdiyyəsi, ümumiyyətlə, fəallarımızın hamısı bu işin vaxtında və keyfiyyətlə başa çatdırılması üçün əllərindən gələni əsirgəmirlər. Qalaçay su mənbəyində 850 metr drenaj işləri görülmüş, 2 ədəd 800 kub metrlik su anbarı tikilmiş, 4,3 kilometr magistral, 146,6 kilometr daxili şəbəkə çəkilmişdir.

Kəndin ziyalı və ağsaqqallarından Aydın Mehrəlizadə, Eyvaz Hacıyev, Oqtay Yunusov, Rəşad Səfərəliyev vətəndaşların istəklərinə, sosial problemlərinin həllinə qayğı göstərən dövlətə, onun başçısı Prezident cənab İlham Əliyevə minnətdarlıq və təşəkkürlərini bildirdilər.

Yuxarıda qeyd etdiyimiz kimi, Oğuzda içməli su probleminin həlli istiqamətində də son 3-4 ildə əsaslı işlər görülmüşdür. Artıq Oğuz şəhərində, rayonun Xaçmaz, Kərimli, Bayan, Bucaq, Muxas, Baş Daşağıl, Qarabulaq kəndlərində vətəndaşların bu sosial qayğıları öz həllini tapmışdır. Rayon su kanal idarəsindən verilən məlumata görə, 2011-2014-cü illərdə 399,65 kilometr yeni su, 113,94 kilometr kanalizasiya xətti çəkilmişdir. Digər yaşayış məntəqələrində də həmin işlərin görülməsi istiqamətində məqsədyönlü tədbirlər müəyyənləşdirilir.

Rayondaxili, həmçinin respublika əhəmiyyətli yolların təmiri də diqqət mərkəzindədir. Oğuz 61 saylı yol istismarı MMC-nin qüvvəsi ilə ötən il və cari ilin keçən dövründə Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunda, həmçinin Padar-Böyük Söyüdlü-Vladimirovka, Böyük Söyüdlü-Qarabulaq, Oğuz şəhər-Xaçmaz-İstisu, Malıx, Baş Daşağıl, Yenikənd, Mollalı, Tərkeş, Calud avtomobil yollarında xeyli təmir işləri aparılmış, nəqliyyatın gediş-gəlişi üçün rahatlıq yaradılması təmin edilmişdir.

**Rasim AMANOV,**
**“Respublika”.**